# Antiplagiat sistemi üzrə qaydalar

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar № 20-IQ, 07 fevral 1996-cı il tarixli «Müəlliflik hüququnun və əlaqəli hüquqların müdafiəsi sahəsində əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu; 1.2 № 115-IQ, Bakı şəhəri, 5 iyun 1996-cı il tarixli Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu; Təhsil müəssisələrində hazırlanan tədris vəsaitlərində plagiat halları ilə mübarizənin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Təhsil Nazirinin 464№-li 2016-cı il 05 iyul tarixli əmri ilə tənzimlənir.

1.2. Bu Qaydalar Antiplagiat Normativ Aktları universitetdə Antiplagiat Qaydalarının təmin olunmasını müəyyən edir.

1.3. Bu Qaydalar bakalavr, magistr, doktorluq və digər elmi işlərin (tədris metodiki vəsaitlər) yoxlanılmasını nəzərdə tutur.

## 2.MƏQSƏD:

Antiplagiat sisteminin əsas məqsədi buraxılış işlərinin, magistr və doktorluq dissertasiyalarının, həmçinin tədris vəsaitlərinin, elmi-tədqiqat işlərinin və monoqrafiyaların oxşarlığının yoxlanılmasını təşkil etməkdir.

## 3. ANTİPLAGİAT SİSTEMİNİN ƏSAS TƏLƏBLƏRİ

Antiplagiat sistemində istifadəçilər üçün electron ünvanlar yaradılır və fərdi hesablar açılır.

1. Antiplagiat sistemində istifadəçilər (bakalavr, magistr və doktorantlar) üçün açılan fərdi hesablar universiteti bitirdikdən sonra bağlanır.

2. Antiplagiat sistemi tərəfindən diplom və ya dissertasiya işinin yoxlanmasından öncə istifadəçi Strike Plagiarism Antiplagiat İnternet-Sistemində fərdi hesabını aktivləşdirir.

3. İstifadəçinin Antiplagiat sistemində fərdi hesabını aktivləşdirmək üçün universitetin serverində electron poçt ünvanına göndərilən istifadəçi adını (login) və parolunu istifadə edərək www.strikeplagiarism.com və ya www.plagiat.pl saytına daxil olmalı və sisteminə şəxsi məlumatları daxil etməlidir.

4. Universitetin serverində yaradılmış electron poçt ünvanlarını istifadə etməyən istifadəçilər öz fərdi hesablarını universitetin veb-saytında aktivləşdirməlidirlər.

İstifadəçinin electron poçt ünvanının fərdi hesabının aktiv edilməsi yalnız universitetdə mümkündür.

5.Diplom, dissertasiya və ya tədris vəsaitləri yalnız Antiplagiat İnternet-Sisteminin müvafiq bazası əsasında universitetdə istifadə olunan versiya tərəfindən yoxlanıla bilər.

6. Kompüter çap materialının mətni electron variantının mətni ilə eyni olmalıdır.

7. Anti plagiat sisteminə yüklənən mətnin bilərəkdən təhrif olunmasına, işin yüklənilməsi zamanı mətnin hər hansı bir hissəsinin buraxılmasına, şriftin bilərəkdən dəyişdirilməsinə, digər əlifba işarələrinin istifadə olunmasına, xüsusi işarələrin əlavə olunmasına, sözlər də işarələrin sırasının dəyişdirilməsinə, mətndə olan bir sıra işarələrin buraxılmasına və s. görə istifadəçi birbaşa intizam məsuliyyəti daşıyır.

8. Müdafiəyə-imtahana buraxılmış bütün elmi işlər müdafiənin başlanılması tarixindən sonra 48 saat ərzində Administrator tərəfindən Strikeplagiarism.com İnformativ Məlumatlar Bazasına daxil edilir.

## 4. ANTİPLAGİAT SİSTEMİNİN TƏTBİQİ QAYDALARI

1. Dissertasiya işi antiplagiat sistemində yoxlanıldıqdan sonra Doktorantura təhsili və tədqiqatların təşkili şöbəsində müvafiq qaydada aşağıdakı şəkildə nəticəyə dair hesabatı təqdim edir:

-Magistr dissertasiyasının yoxlanılmasının nəticəsinə dair arayış universitetin Magistratura şöbəsinə;

-Fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının nəticəsinə dair arayış namizədin özünə;

Dərs vəsaitləri, monoqrafiyaların nəticəsinə dair arayış müəlliflərin özünə;

Elmi-tədqiqat işlərinin nəticəsinə dair arayış müvafiq kafedraya;

Təqdim edilən arayışın bir nüsxəsi Doktorantura təhsili və tədqiqatların təşkili şöbəsində saxlanılır.

2. Yoxlama zamanı dissertasiyalar müəyyən edilmiş limiti aşarsa müvafiq şöbə (Magistratura şöbəsi) onları aşağıdakı qaydada rəsmiləşdirir:

*İş orijinaldır və müdafiəyə qəbul edilmişdir;*

*İş düzgün şəkildə formalaşdırılmayıb və yenidən işlənilməlidir;*

3. İşin düzəlişə ehtiyacı olduğu halda, işin imtahana (müdafiəyə) Buraxılış Protokolunu əldə etdikdən sonra magistr lazım olan düzəlişləri yerinə yetirir və düzəlişlərin elmi rəhbər tərəfindən təsdiqləndiyi halda işin yeni variantını antiplagiat sisteminə təkrar yükləyir.

4. Universitet 2(iki) dəfə işi düzəltmək üçün imkan yaradır. Hər cəhd yenidən antiplagiat yoxlamasını keçməyi tələb edir.

5. Əgər ikinci yoxlamadan sonra yoxlama nəticəsində dissertasiya işində plagiat halları aşkar olunarsa, bu iş müdafiəyə buraxılmayacaq və Sistemin Məlumatlar Bazasına daxil edilməyəcəkdir. magistr oxşarlıq hesabatlarının şöbə və dekanlığa təqdim edilməsindən sonra 3(üç) iş günü ərzində, bildiriş alacaqdır.

## 5. OXŞARLIQ HESABATLARINDA UNİVERSİTETİN MÜƏYYƏN ETDİYİ LİMİT HƏDDİ

1. Magistr dissertasiyaları üçün:

I Oxşarlıq Əmsalı – 30%-dən çox olmamalıdır;

II Oxşarlıq Əmsalı – 6%-dən çox olmamalıdır.

2.Fəlsəfə doktoru və elmlər doktoru dissertasiyaları üçün:

I Oxşarlıq Əmsalı –10% dən çox olmamalıdır;

II Oxşarlıq Əmsalı –5%-dən çox olmamalıdır.

3.Dərs vəsaitləri, monoqrafiya, elmi-tədqiqat işləri üçün:

I Oxşarlıq Əmsalı –30% dən çox olmamalıdır;

II Oxşarlıq Əmsalı–5% dən çox olmamalıdır.

5.1 Yoxlanılmış magistr dissertasiyalarında oxşarlıq həddi təyin olunmuş limit həddindən yüksək olarsa, təhsil alana icazə verilir ki, bir ay ərzində dissertasiya işi üzərində düzəlişlər edərək dissertasiya təkrar sistemdə yoxlasın. İkinci yoxlamada da oxşarlıq həddi yenidən limitdən çox olarsa işin müdafiəsi növbəti semestrə saxlanılır.

5.2 Əgər qiymətləndirmə nəticəsində təqdim olunan magistr dissertasiyalarında plagiat faktları yoxdursa və ancaq sitatların miqdarı elmi işin 30%-dan artıqdırsa, bu işin orijinallıq dərəcəsi aşağıdır – bu elmi iş müdafiəyə buraxılmır və Sistemin Məlumatlar Bazasına əlavə edilmir. Bu halda namizəd elmi rəhbəri ilə məsləhətləşməli, elmi işi üzərində 1 (bir) ay ərzində dəyişiklik aparmalı və elmi işini yenidən antiplagiat yoxlamasına təqdim etməlidir.

5.3 Fəlsəfə və elmlər doktoru proqramı üzrə dissertasiyalar, elmi məqalələr və tədris vəsaitlərində təkrar yoxlama iddiaçıların şəxsi vəsaitləri hesabına həyata keçirir;

5.4 Oxşarlıq Əmsalları 80%-dən yuxarı olarsa həmin tədris metodiki vəsait və dissertasiya II dəfə yoxlamaya qəbul edilmir.

5.5 Oxşarlıq əmsalları yalnız universitetin Elmi Şurasının qərarı ilə dəyişdirilə bilər.

## 6. APELLYASİYA QAYDALARI

1.Namizəd plagiatın nəticəsinə dair arayışın təqdim edildiyi gündən sonra maksimum 3 iş günü ərzində universitet rektoruna müraciət etmək hüququna malikdir.

2. Rektor əldə olunan sənədlər və zəruri hallarda öz təhlili əsasında yekun qərar qəbul edir. Rektor iş üzrə qərarı apellasiyaya müraciətdən sonra 10 iş günü ərzində qəbul edir və işin müdafiəyə buraxılmasına, işdə düzəliş olunmasına və ya plagiatın olmasına, intizam tədbirlərin görülməsinə dair qərar verir.

3. Apellyasiya müraciəti yalnız bir dəfə oluna bilər.

## Strikeplagiarism-Antiplagiat proqramının tətbiqi zamanı tələb ediləcək ödəniş mexanizmi haqqında qaydalar

**1.** Bu qaydalar Bakı Slavyan Universitetinin akademik heyəti(müəllim və professorların), magistrant və doktorantları, eyni zamanda Bakı Slavyan Universitetinə müraciət edən digər təhsil müəssisələrinin akademik heyəti (müəllim və professorların), magistrant və doktorantlarına aiddir.

**2**. Antiplagiat proqramında yoxlanış aşağıdakı hallarda ödənişsizdir:

-Bakı Slavyan Universitetinin akademik heyətinin Elmi-tədqiqat işlərinin ilk dəfə yoxlanılması zamanı;

- Bakı Slavyan Universitetinin magistratura pilləsində təhsil alan magistrantların dissertasiyalarının ilk dəfə yoxlanılması zamanı;

**3**.Aşağıdakı hallarda antiplagiat proqramında yoxlanış ödənişlə həyata keçirilir:

- Plagiat aşkarlandığı halda Bakı Slavyan Universitetinin akademik heyətinin Elmi-tədqiqat işlərinin ikinci dəfə yoxlanışı zamanı;

-Plagiat aşkarlandığı halda Bakı Slavyan Universitetinin magistratura pilləsində təhsil alan magistrantların dissertasiyalarının ikinci dəfə yoxlanışı zamanı;

-Dissertasiya yoxlanılması üçün müraciət edən fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə təhsilalanların dissertasiyalarının ilk dəfədən yoxlanılması zamanı;

-Dərs vəsaitləri üçün müraciət edən namizədlərin təqdim etdiyi materialların ilk dəfədən yoxlanılması zamanı.

**4.** Ödəniş mexanizmi aşağıdakı şəkildə həyata keçirilməlidir:

-müəyyən edilmiş məbləğ Bakı Slavyan Universitetinin mühasibatlığı tərəfindən təyin edilmiş müvafiq hesaba ödənilir;

-ödənişin həyata keçməsi haqqında əldə edilən qəbzin bir nüsxəsi “Doktorantura təhsili və tədqiqatların təşkili” şöbəsində saxlanılır.

-qəbz təqdim edilmədiyi halda proqramda yoxlanışın həyata keçirilməsinə yol verilməməlidir.

**5.** Antiplagiat proqramından istifadə zamanı ödənişlərin məbləği “Strikeplagiarism proqramının əvvəlcədən müəyyən etdiyi qayda”da, Kiçik və ya Böyük Kodun (Kiçik Kod- işarə sayı maksimum 200.000(iki yüz min), Böyük Kod – işarə sayı maksimum 1500000(bir milyon beş yüz min) )alınmasından asılı olaraq işarə sayına əsasən aşağıdakı şəkildə təyin edilir:

-Elmi tədqiqat işlərinin ikinci dəfə yoxlanışı zamanı- 20(iyirmi) manat

-Magistrantların dissertasiyalarının ikinci dəfə yoxlanışı zamanı – 40(qırx)manat

-Fəlsəfə və elmlər doktorlarının dissertasiyalarının ilk dəfədən yoxlanılması zamanı– 70(yetmiş) manat

-Dərs vəsaitlərinin ilk dəfədən yoxlanılması zamanı – 70 (yetmiş) manat